**Elçin Tofik ƏLİYEV**
Qərbi Kaspi Universieti
E-Mail : elchintofik@gmail.com

**Ayla Vüqar MƏHİZADƏ**
Qərbi Kaspi Universieti
E- Mail: ayla.mthadeh@gmail.com

# ŞUŞA MUSİQİ MƏKTƏBİNİN DİZAYN HƏLLİNDƏ,MUSİQİ MƏCLİSLƏRİNİN (MƏKTƏBLƏRİNİN) ROLU

**Xülasə**

Vətənimizin hər bir guşəsi, hər qarış torpağı bizim üçün doğmadır. Hər birinin qəlbimizdə yeri özünəməxsusdur. Şuşa isə mədəniyyət ocağımız, ruhumuzun şəhəridir.

Şuşa şəhəri qədim mədəniyyət mərkəzlərimizdən biridir. Şuşa Qafqazın konservatoriyasıdır. Bir çox məşhur musiqiçilərin, xanəndələrin vətənidir. Musiqi məktəbinin dizayn həllində, bu qədim tarixdən və mədəniyyətdən ilhamlanılmışdır.

**Açar söz:** Şuşa, Musiqi, Mədəniyyət

DOI: 10.54414/AFJR8016

**Giriş**

Şuşa şəhəri zəngin tarixi keçmişə malik olan mədəniyyət beşiyimizdir. Azərbaycan xalqının tarixi ənənələrinin simvoludur. Şuşa ətrafında yerləşən qədim yaşayış yerləri, məhşur Cıdır düzündə Üçmıx adlı dağda Şuşa mağarası ən qədim insan yaşayış düşərgələrindən biri olduğunun sübutudur [1]. 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Qarabağ xanlığı yarandı. Onun əsasını 1748-ci ildə Pənahəli xan qoymuşdur. Qarabağ xanlığının paytaxtı isə Şuşa şəhəri idi. O, Cavanşirlər tayfasının sarıcanlı oymağından idi. 1750-ci ildə hündür və sıldırım dağın üzərində inşa edilən bu paytaxt şəhər "Pənahabad", "Şuşa qalası" və "Şuşa" adlandırılmışdı. Pənahəli xanın ölümündən sonra isə, Şuşanın müdafiəsinin möhkəmləndirilmə işləri oğlu İbrahimxəlil xana keçir. Onun vəziri isə görkəmli şair Molla Pənah Vaqif olmuşdu. Qoruyucu tikinti işləri isə 1783-1784-cü illərdə olmuşdu. Qalaya giriş iki davazadan idi. Biri şimaldan Gəncə qapısı, digəri isə qərbdən İrəvan qapısıdır.

İngilis səyyah və alimi R.Burter yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır" [1]. Hətta tarixi mənbələrdə Şuşa şəhəri XIII əsrdə Azərbaycanın məhşur şəhərlərindən biri olmuşdur.

Qədim Şuşa, memarlığı ilə də göz oxşayırdı. Bu şəhərdə evlər düzgün formalı, gözəl və hündür, çoxsaylı pəncərələr ilə işıqlandırılmışdı. Qayalıqlar qoynunda yerləşən bu heyrətamiz şəhər elə həmən qayalardan da tikilmişdi.

Azərbaycanın tarıxı və mədəniyyət beşiyi sayılan bu şəhər özünün xalçası, ipəyi, parçası və çini qabları ilə dünya bazarlarına çıxmışdı[2]. Bu bazarlarda isə çox böyük şöhrət qazandı. Şuşalı tacirlər Təbriz, İsfahan, Tehran , İstanbul, Bağdad, Səmərqənd, Moskva, Marsel və başqa şəhərlərlə əlaqəli idi. Şəhərdə hətta "Pənahabadi" adı ilə gümüş sikkələr zərb edilirdi. Bundan ötrü Pənahəli xan Şuşada zərbxana tikdirir. İbrahimxəlil xan isə onu genişləndirir və artırır. Bu sikkələr nəinki Azərbaycan xanlıqlarında istifadə olunur, hətta İranada başqa sikkələr ilə bərabər isitifadə olunurdu. Şuşada yerli memarlar qədim ənənələr üzrə fəaliyyət gostərirdi. Monumental rəssamlar tərəfindən naxışlarla bəzədilmiş evlər, imarətlər inşa edilirdi. Evlərin pəncərələrində şüşələr ilə şəbəkə qurulurdu.

O dövrdə Şuşa şəhəri ticarət mərkəzi idi. Bura bütün Qafqazda və yaxın Şərqdə məşhur oldu. O zamanlarda karvan nəqliyyatı ticarətdə

muhim rol oynayırdı. Karvan ticarəti Şərqdə ən qədim dövrlərdən mövcud idi. Bundan ötrü isə Karvansaraylar mövcud idi. Şəhər karvansarayları özü iki hissəyə bölünürdü: bazar və mehmanxana növlü karvansaraylar[3].

Karvansaraylar ticarət mallarının saxlanılmasına xidmət edirdi. Həm də Avropa tipli mehmanxanalarını və qonaq evlərini əvəz edirdi. Mehmanxana növlü karvansaraylarda gəlmə tacirlər yaşayır, ticarətlə məşğul olurdu. Buna görə də o dövrdə karvansaraylar əsasən iki mərtəbə, bəzən isə üç nərtətbə tikilirdi[3].

**Şuşanın musiqi tarixi və musiqi məclisləri.** Muğam bizə yaxın bütün Şərq xalqlarının musiqisi üçün tipik bir janrdır[1]. Onların hər birində muğamın öz xakterik cizgiləri vardır. Bunları heç vaxt qarışdırmaq olmaz. Azərbaycanın hüdudlarında müxtəlif muğam və dəstgahların, ifa texnikası və özünəməxsus trakrovkası ilə fərqlənən ayrı-ayrı muğam məktəbləri mövcuddur. Qarabağ və Bakı muğam məktəbləri xüsusi ilə seçilmişdir.

Qədim Azərbaycanlıların məişəti və etiqadı haqqında əsrlərboyu bədii surətdə şifrələmiş informasiyanı özündə gəzdirən. Xalçaları ilə şöhrət qazanan Qarabağ və Şuşa dünya mədəniyyətində daha çox musiqi sahəsindəki yüksək nailiyyətləri ilə tanınmışdır. O dövürlərdə dini mərasimlər ilə müsəlmanlığın qəbul edilməsindən sonra sufilik təriqətlərinin sirləri ilə bağlı olan muğamı başa düşmək və ifa etmək çox çətindir. Çünki bu ifaçıdan yüksək peşəkarlıq tələb edirdi. Bu janrı öyrənməyə xanəndələr 10-15 il vaxt sərf edirdilər. Muğam şifahi ənənələrin professional musiqisi hesab edilir. Onun əsasının səs düzümünü ahəng təşkil edir, on iki əsas muğam və on iki əsas ahəng məlumdur. Muğam poetik yaradıcılıqla bağlıdır. Muğam Nizami, Hafiz, Nəvai, Füzuli və digər şairlərin şeirlərinə melodiya olurdu. Görkəmli şairlər çox vaxt muğamın müəyyən ahəngi üçün qəzəllər yazırdılar və bununla xüsusi uğur qazanırdılar.

Burada təsvir edilən zamanlarda muğamın ifası bir neçə saat davam edirdi. Muğam çoxşöbəli əsərdir, şöbələr arasında ifa olunan hissənin başa çatması, dinləyicinin növbəti hissəyə hazırlanması, həmçinin xanəndənin istirahəti üçün mahnı tipli aravermə yəni, təsniflər əlavə edilirdi. Çox vaxt təsnifləri ifaçıların özləri bəstələyirdi. Aravermə musiqili , sözsüz, yəni, rəng ola bilərdi. Şöbələrin sayı ifaçı tərəfindən onun muğamı bilməsi, ifa etdiyi mövzunu fəlsəfi cəhətdən başa düşməsiylə müəyyən edilir.

Dünyada bir neçə şəhərlər vardır ki, musiqi onun daşına, torpağına hopmuşdur. Belə şəhərlərə misal olaraq Avropada Vyana və Neapol, Azərbaycanda isə Qarabağımızın incisi Şuşa şəhəridir. Xalq arasında məhşur bir kəlam var ki, "Şuşda körpələr beləkdə belə muğam üstündə ağlayırlar". Bu cümlə əbəs yerdən yaranmamışdı. Zaqafqaziyanın musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdı. Buradakı musiqiçilər nəinki Azərbaycan musiqisinin tarixini yaradırdılar, onlar hətta digər şərq ölkələrində də musiqimizi təqdim edirdilər. Bu şəhər Qarabağın mədəniyyət mərkəzinə çevrilmişdi. Bura şairlər, yazıçılar, filosoflar, tanınmış ilahiyyatçılar, musiqiçilər və rəssamlar toplanmışdılar. Burada mədəniyyət və incəsənət xadimləri sabahlarını düşünmədən rahat işləyə bilirdilər.

Şuşa əzəldən Azərbaycanın musiqi beşiyi sayılır. Burada hər yerdə musiqi səsi eşidilirdi. Şuşada yaşından və kimliyindən asılı olmadan demək olar ki, bütün insanlar oxuyur , musiqi alətlərində ifa edirdi. XIX əsrin ikinci yarısında Bakı və Şamaxı kimi , Şuşada da musiqi məclisləri təşkil olunub. Musiqi məclisləri əsl sənətkarlıq məktəbinə çevrilmişdi. Bu məclislər nəinki böyük şəhərlərdə, hətta kəndlərdə də eşidilib, musiqisevərlər tərəfindən musiqi məclisləri təşkil olunmuşdu.

Azərbaycan musiqi və muğam tarixinə yeni xanəndələr və musiqiçilər nəslinin yetişməsində, Şuşada olan qədim musiqi məktəblərinin rolu çox böyük olmuşdu. Şuşada ilk məktəb XIX əsrdə yaşamış musiqişünas Xarrat Qulu tərəfindən yaradılmışdı. Xarrat Qulu Məhəmməd oğlu 1823-cü ildə doğulmuş, yüksək təhsilli müəllim, musiqiçi, şair və xanəndə idi. Çox gözəl şeirlər yazırdı. Onun məktəbinə səsi olan gənclər götürülürdü, musiqi məclisləri təşkil olunar ve o gənclər bu məclislərdə ifa edərdi. Xüsusi ilə məhərrəmlik aylarinda keçirilən məclislərdə Şəbih rollarında oynayırdılar. Burada onlara muğamlar, Şərq musiqisi və Azərbaycan el havalarnı düzgün oxumağı örədirdilər. Məktəbin ilk zamanlar əsas

yaranma məqsədi dinə xidmət etmək idi. Zaman keçdikcə isə sırf musiqi məclislərinə çevrildi. Xarrat Qulunun məktəbi Hacı Hüsü, Dəli İsmayıl, Məşədi İsa, Əbdülbacı Zülalov, Şahnaz Abbas, Sadıqcan, Cabbar Qaryağdıoğlu və Keçəçi oğlu Məhəmməd kimi ustadların yetişməsində çox böyük rol oynayıb.

Şuşada XIX əsrin sonlarında fəaliyyət göstərən dini xarakterli digər musiqi məktəbi Kor Xəlifənin məktəbi olmuşdu. Bu məktəb Qarabağın əhalisinin inkişafında böyük rol oynamışdı. Şuşanın Zaqafqaziyanın musiqi mərkəzinə çevrilməsinə səbəb olmuşdu.

Bu məktəbin yaradıcısı xəlifə vəzifəsində çalışan , dini işlərə nəzarət edən Molla Əli Kəlbəli oğludu. O , Kor Xəlifə ləqəbi ilə tanınırdı. Bu məktəbdə dini elmlər, klassik muğamlar, onları oxumaq qaydaları, xanəndəlik sənəti və onun incəlikləri, kamança, tar və digər musiqi alətlərində ifa etmək öyrədilirdi. Burada tez-tez poeziya və muğam müsabiqələri təşkil edilir, istedadlı gənlər üzə çıxarılıb.

Onları həvəsləndirmək üçün isə mükafatlar verilirdi. Məktəb 10 il fəaliyyət göstərib. Bu onillikdə isə tək Qarabağda deyil, qonşu vilayətlərdə və hətta İranda da tanınıb.

Xərrat Qulunun vəfatından sonra isə böyük muğam ustası Hacı Hüsünün də iştiraki ilə musiqişünas-alim Mir Möhsün Nəvvab Qarabaği, Şuşada musiqi məclisi təşkil etmişdi. Mir Möhsün Nəvvab 1833-cü ildə dünyaya gəlmişdi. Onun qurduğu bu musiqi məclisini " Xanəndələr məclisi" adlandırırdılar. Həm də uzun illər boyu musiqi məktəbi rolunda oynamışdı. Bu məclisin yaradılmasındaki əsas səbəb isə yeni xanəndələr yetişdirmək idi. Həmçinin bu sənəti xalq arasında geniş yaymaq, klassik Azərbaycan muğamlarını daha da inkişaf etdirmək də səbəblərdən digərləri idi. İstedadlı gəncləri üzə çıxartmaq üçün məclisdə tez-tez muğam müsabiqələri, musiqi yarışları təşkil edirdilər. Bu məclisin yetirmələri Keçəçi oğlu Məhəmməd, Məşədi İsi, Keştezan Haşım, Dəli İsmayıl, Malıbəyli Cümşüd, Şahnaz Abbas, Cabbar Qaryağdıoğlu, Malıbəyli Həmid, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev kimi məşhur sənətkarlardır[6].

XIX əsrin sonlarında Şuşada məhşur olan musiqi məktəbi Molla İbrahimin yaratdığı məktəbdir. Bu musiqi məktəbi də digər məktəblər kimi dini xarakter daşıyırdı. Lakin bu məktəb Qarabağın ilk ədəbi məktəbidir. Qarabağın Rusiyaya birləşdirilməsindən sonra daha da sabit yerini tutdu. Mədəniyyətin inkişafı Rusiya vasitəsilə Avropanın təsiri altına düşmüşdü. Və nəinki Şuşada Azərbaycanın hər yerində artıq Avropa tipli məktəblər açılmışdı. Qarabağın ürəyi olan Şuşadakı məktəbdə elə idi. Məlahətli və gözəl səsli, poeziyaya həvəsi olan, istedadlı gəncləri seçib götürürdülər. Məktəbdə klassik muğamlardan dərs keçirilir, fars, ərəb dilləri və dini mərasimlər öyrədilirdi. Burada həmçinin Hafiz Şirazi, Nizami Gəncəvi, Qasım bəy Zakir, Sədi Şirazi, Ömər Xəyyam, Məhəmməd Füzuli, Seyid Əzim Şirvani və başqa şairlərin qəzəlləri tədris olunurdu[6]. Molla İbrahim Məktəbində bir sıra musiqi xadimləri, xanəndələr, eləcə də Bülbül, Mehralı oğlu Bahadır və başqa sənətkarlar təhsil almışdı.

Yeni məclislərdən biri isə 1872-ci ildə Xurşudbanunun yaratdığı "Məclisi-üns" ("Dostluq məclisi") idi. Məclisin əsasını qoyduqdan sonra o, "Natəvan" təxəllüsünü götürür. Ona demək olar ki, əsrin sonunadək uğurla rəhbərlik edirdi. Məclisin katibi Mirzə Rəhim Fəna seçilmişdi. Əsas üzvləri isə şairlər Əbdül Şəhid, Mirzə Hüseyn Salar, İbrahim bəy Azər, Abdulla bəy Asi, Mirzə Məhəmməd Katib, Mirzə İsmayıl Sərac, Mirmehdi Xəzani və Ağahəsən Yüzbaşov idi[1]. "Məclisi-üns" Azərbaycanda böyük nüfuz qaznmışdı. Məclisin çiçəklənmə dövründə təxminən otuz üzvü var idi. Bu məclislə Bakı və Şamaxının məclisləri, başqa şəhərlərin şairləri də əlaqə saxlayırdılar. "Məclisi-üns"ün təsiri ilə Şuşada Mirmöhsün Nəvvabın rəhbərliyində "Məclisi-fəramuşan" yaradıldı. Bu məclisin üzvləri sonradan "Məclisi-üns"ün tərkibinə daxil olacaqdı. Şamaxıda, Bakıda və Lənkəranda məclislər fəaliyyət göstərməyə başladılar. Buradakı məclislərin yığıncaqlarına tez-tez Şuşadan məşhur xanəndələr dəvət olunurdu. Burada onlar yüksək hazırlıqla və xeyirxah dinləyicilər görürdülər.

Azərbaycanda ilk dəfə olaraq Şuşada teatr tamaşası göstərilmişdi. Bu tamaşa 1848-ci ildə baş tutmuşdu. İlk olaraq teatr binası tikilmişdi. Burada təhsil alan bir çox xanəndələr Avropa səhnələrinə də çıxmağa başlamışdı. Bu xanəndələrin "Şərq konsertləri" böyük şöhrət qazanmışdı. Şuşada indiyə qədər xalq arasında

yeni rəqslər yarandı. Onların aralarında "Vağzalı", "Ceyranı", "Tərəkəmə", "Turacı", "Asta Qarabağı", "Mirzəyi", "On dörd" və sair xüsusi yer tutrdu[1]. Təzə mahnılar , təsniflər yazılırdı, yeni dəstgahlar yaradılırdı.

Şuşada dəbdə olan aşıqlar çıxış edirdi. Bunlardan biri isə aşıq Pəri idi. Aşıq Pərinin yaradıcılığı üzərində xüsusilə dayanmaq lazımdır. O, qeyri adi gözəlliyi və fenomen poetik istedadı ilə seçilirdi[1]. On altı yaşlı Pəri xanımın şeirləri ütün Qarabağın dilində əzbər idi. Hətta məşhur aşıqlarla ənənəvi poeziya yarışlarında həmişə qalib olurdu.

Şuşa nəinki musiqi, Azerbaycanın dramaturgiyası, poeziyası və nəşrinin inkişafına çox böyük töfhələr vermişdi. Poeziya məktəbinin başında isə Molla Pənah Vaqif dururdu. O, Azərbaycanın poeziyasının inkişafında çox böyük tohfələri olmuşdu. Molla Pənah Vaqif həm də Qarabağ xanının vəziri idi. O , çox gözəl təhsil almış, elmliliyi və alimliyi ilə seçilirdi. Vaqif fars və ərəb dillərini yaxşı bilirdi. Astronomiya , riyaziyyat, memarlıq və musiqi sahəsində də böyük biliyə malik olmuşdu. Hətta belə bir deyim də var: "Hər oxuyan Molla Pənah olmaz...".

Rus musiqişünası Karqanov Tiflisdə(1908) nəşr olunan "Qafqaz musiqisi" kitabında yazırdı: "...Zaqafqaziyaya musiqiçiləri və xanəndələri şeir, musiqi və mahnının füsunkar vətəni olan Şuşa verirdi. Bütün Zaqafqaziya üçün konservatoriya olan bu şəhərdən Zaqafqaziyaya hər mövsüm, hətta hər ay yeni musiqilər, yeni motivlər gəlirdi"[1].

XIX əsrin ortalarında Azərbaycanda böyük şəhərlərinin əksəriyyətində dövrünün ən yaxşı şair və musiqiçilərini birləşdirən müxtəlif ədəbi və musiqi məclisləri yarandı. Daha məşhur məclislər Azərbaycan Atabəyləri, Qaraqoyunlu və Ağqoyunlu, Səfəvi və Qacar nəsillərindən olan elmli və bilikli şahlarının və xanlarının saraylarında baş verirdi. Bunlar bir növ incəsənət akademiyası rolunu oynayırdı. Məclislərdə şairlər öz şeirlərini oxuyurdular, musiqiçilər və xanəndələr isə bu şeirləri musiqiyə çevirirdilər. Yaranan yeni əsərlər müzakirə olunurdu və təzə ifaçıların ustalığı nəzərdən keçirilirdi. Məclislər maddi cəhətdən öz üzvlərinə kömək edir və onların yaradıcılığını geniş əhaliyə çatdırmaqda kömək olurdu.

Şuşada belə ehtimal edilir ki, hələ qalanın əsası qoyulan zamandan belə yığıncaqlar olurmuş. Lakin bizlərə yalnız XIX əsrin məclisləri barədə məlumatlar gəlib çatmışdır. Şuşanın məclislərinin ilk üzvləri XVIII əsrin sonlarının və XIX əsri əvvəllərinin məşhur xanəndələri Şahsənəmoğlu Yusif, Mirzə Hüseyn, Həsəncə, Qaraçı Əsəd, Kosa Məhəmməd, Mirzə İsmayıl, tarzən Ələsgər(Sadıqcanın müəllimi), kamançaçı Qaraçı Hacı bəy və başqaları ola bilərdi[1].

**Nəticə**

Azərbaycanın dilbər güşələrindən olan Şuşa şəhəri haqqında çox məqalələr, kitablar yazılıb. Xan Şuşinskinin səsini qoynunda saxlayan başı qarlı dağlarının əzəmətindən həmişə söz açılıb. Şərq ölkələrinin mədəniyyət mərkəzlərindən biri sayılır. Şuşa milli memarlıq uslubu ilə seçilir, orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi sayılır. Mədəniyyətimizə, ədəbiyyatımıza, incənəsətimizə bəxş etdiyi tarixi şəxsiyyətləri ilə bütün dünyada seçilir. Musiqimizin və muğamımızın beşiyi sayılan, Azərbaycan tarixinə Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Qasım bəy Zakir, Xurşidbanı Natəvan , Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli,Bədəlbəy Bədəlbəylini,Mirzə Sadıq(Sadıqcan) , Firudin bəy Köçərli, Əhməd bəy Ağaoğlu, Üzeyir Hacıbəyli kimi şəxsiyyətlər yetirən Qarabağın dilbər guşəsidir. Şuşa öz arxitekturası ilə də fərqlənir.Qədim Şuşamız alınmaz qalası və mədəniyyət məbədi ilə özü boyda tarixi abidədir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Çingiz Qacar "Köhnə Şuşa" kitabı (2019).Rus dilindən tərcümə edən və məsul şəxs Vasif Quliyev. Bakı, "Şərq-Qərb", 2019, 46 s, 50 s, 58 s, 88 s,296 s, 300s, 303s, 304s.
2. Şuşa Qəzetinin bir neçə Nəşrindən.
3. Firudin Şuşinski "Şuşa" kitabı (1998). Bakı-Gənclik-1998, 11 s, 68 s, 114 s, 339s.
4. Yaqub Mikayıl oğlu Mahmudov, Camal Mehdi oğlu Mustafayev "ŞUŞA-PƏNAHABAD" (2012). Bakı, "Təhsil", 2022, 9 s, 13 s, 40 s, 43 s,
5. Ənvər Çingizoğlu "Şuşa Şəhəri" (2009). "Şuşa" nəşriyyatı,Bakı, 2009, 9 s,

6. Firudin Şuşinski "Azərbaycan Xalq Musiqiçiləri" (1985). Bakı, Yazıçı, 1985, 9-30 s.

**Эльчин Тофиг АЛИЕВ**
**Айла Вугар МЕХИЗАДЕ**

## РОЛЬ МЕСТНОЙ МУЗЫКАЛЬНОЙ ИСТОРИИ В ПРОЕКТНОМ РЕШЕНИИ ШУШСКОЙ МУЗЫКАЛЬНОЙ ШКОЛЫ

**Резюме**

Каждый уголок нашей страны, каждая пядь земли для нас родная. У каждого свое место в наших сердцах. А Шуша – наш центр культуры, город нашей души.

Город Шуша – один из наших древних культурных центров. Шуша – консерватория Кавказа. Это родина многих известных музыкантов и певцов. Дизайнерское решение музыкальной школы было вдохновлено этой древней историей и культурой.

**Ключевые слова:** Шуша, Музыка, Культуре

**Elchin Tifiq Aliyev**
**Ayla Vugar MAHİZADA**

## THE ROLE OF LOCAL MUSIC HISTORY IN THE DESIGN SOLUTION OF THE SHUSHA MUSIC SCHOOL

**Summary**

Every corner of our country, every inch of land is native to us. Each has its own place in our hearts. And Shusha is our center of culture, the city of our soul.

The city of Shusha is one of our ancient cultural centers. Shusha is the conservatory of the Caucasus. It is the homeland of many famous musicians and singers. The design solution of the music school was inspired by this ancient history and culture.

**Key word:** Shusha, Music, Culture

**Daxil olub:** 02.01.2023